*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 noyabr 2016-cı il № 93 (2108) Qiyməti 25 qəpik


# Azərbaycan Ordusu yüksək döyüş hazırlığına malikdir



*Dövlətimiz tərəfindən hərtərəfli təmin edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığı sahəsində qazandığı uğurları təkcə ölkəmizdə hərbi mütəxəssislər qeyd etmirlər, eyni zamanda beynəlxalq analitik hərbi təşkilatlar və ekspertlər də ordumuzun son illərdə əldə etdiyi nailiyyətləri bir fakt olaraq vurğulayırlar. Bu ilin aprelində təmas xəttində baş vermiş döyüşlər zamanı Azərbaycan Ordusunun bölmələri Ermənistan silahlı birləşmələri üzərində qazandığı zəfərlə sübut etdi ki, hərbi analitiklər ehtimallarında yanılmayıblar.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, noyabrın 26-sı axşam saatlarında cəbhənin Füzuli rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus pilotsuz uçuş aparatı vaxtında aşkar olunaraq atəşlə məhv edilib.

Maraqlıdır ki, noyabr ayında bölmələrimizin sayıqlığı nəticəsində Ermənistan ordusunun iki dronu təmas xətti üzərində vurularaq salınıb. Hadisə noyabrın 14-də axşam saatlarında cəbhənin Tərtər rayonu istiqamətində baş vermişdi. Bütün bunlar Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığını göstərməklə yanaşı, həm də döyüş hazırlığı sahəsində nəyə qadir olduğunu əyani surətdə göstərir. Təbii ki, uğurlar gərgin fəaliyyət, gündüz və gecə vaxtlarında keçirilən taktiki, ixtisas hazırlığı məşğələlərində, çöl çıxışlarında, təlimlərdə zabit, gizir və əsgərlərimizin əldə etdiyi bilik və döyüş vərdişlərində qazanılır.

**(Ardı 2-ci səhifədə)**



"Mən Vətən torpağı, Vətən daşıyam"

3-cü səhifədə



"Qalib əsgərlərimizlə işğaldan azad edilmiş torpaqlarımızda da görüşəcəyik"

5-ci səhifədə



Harada həkim varsa, orada ümid doğulur

6-cı səhifədə



"Qələbə ərəfəsindəyik"

7-ci səhifədə

# Azərbaycan Ordusu yüksək döyüş hazırlığına malikdir

(Əvvəli 1-ci səhifədə)



Ümumiyyətlə, bir faktı qeyd etməyə dəyər ki, noyabr Silahlı Qüvvələrimizin çoxşaxəli fəaliyyətində yetərincə məhsuldar ay kimi yadda qaldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, döyüş hazırlığı prosesinin məntiqi yekunu kimi irimiqyaslı təlimlər keçirildi. Təlimlərə bütün qoşun növləri - Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının bölmələri qatılmışdı. Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun mexanikləşdirilmiş, tank və artilleriya bölmələri də irimiqyaslı təlimlər çərçivəsində döyüş bacarığını nümayiş etdirmişdi.

Hərbi manevrlərin ilk günündə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəbhə bölgəsinə gedərək ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olmuş, düşmənin qarşıdakı mövqelərini izləmişdi. Ali Baş Komandan, həmçinin təmas xəttində hərbçilərlə görüşmüş, onların qarşısında çıxış edərək bir sıra dəyərli tövsiyələr vermişdi. Eyni zamanda Prezident İlham Əliyev döyüş tapşırığını yerinə yetirərkən xüsusi fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etmişdi. Ön xətdə olarkən dövlət başçısı həm də önəmli bəyanat vermiş, işğalçı Ermənistanı Azərbaycan torpaqlarından çəkilməyə çağırmışdı. Aprel döyüşlərinə toxunan Ali Baş Komandan bildirmişdi: "Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir".



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən irimiqyaslı təlimlərə yetərincə böyük qüvvələr cəlb edilmişdi. 60 minədək şəxsi heyət, 50-dən çox təyyarə və helikopter, 150-dən artıq tank və zirehli texnika, eləcə də raket və artilleriya qoşunlarının 700-dək qurğusu təlim tapşırıqlarının yerinə yetirilməsində iştirak edirdi. Ən müasir döyüş vasitələrilə təmin edilmiş Hərbi Hava Qüvvələrinin və digər qoşun növlərinin birgə fəaliyyətinin, qarşılıqlı əlaqəsinin planlaşdırılması və təşkili, eyni zamanda müdafiə və hücum əməliyyatlarının aparılması üçün müasir silah sistemlərinin tətbiqi manevrlər zamanı qarşıya qoyulmuş başlıca vəzifələr idi. Təlimlərdə qoşunların qarşılıqlı əlaqəli fəaliyyəti, o cümlədən döyüşə tam hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, müdafiənin aparılması, əks-hücum əməliyyatının hazırlanması və keçirilməsi üzrə tapşırıqlar icra olundu. Bu zaman hərbi sənayenin son nailiyyətlərindən hesab edilən pilotsuz uçuş aparatlarından hava kəşfiyyatının aparılması məqsədilə istifadə edilirdi. Son mərhələdə müxtəlif poliqonlarda, ərazilərdə, təlim sahələrində, avadanlıqla təchiz edilmiş digər nöqtələrdə döyüş atışları, bölmələrin və atəşin manevrləri yerinə yetirildi.

Silahlı Qüvvələrin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, eləcə də məsul zabitlərin iştirakı ilə irimiqyaslı təlimlərin yekunlarına dair kollegiya iclasında Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrimizin fəaliyyətini yüksək qiymətləndirmişdi. Nazir bütün qoşun növü və qisimləri, xüsusi təyinatlılar, təminat vasitələri tərəfindən döyüş şəraitinə maksimal uyğunlaşdırılmış vəziyyətdə imkanlarını praktiki tətbiq edərək təlim-döyüş tapşırıqlarının tələb olunan səviyyədə icrasına nail olunduğunu qeyd etmiş, həmçinin döyüş atışlarının icrası, bölmələrin və atəşin manevrlərinin həyata keçirilməsi zamanı komandirlərin və şəxsi heyətin peşəkarlığını yüksək dəyərləndirmişdi. Şəxsi heyətin döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığını xüsusi qeyd edən Müdafiə naziri belə təlimlərin keçirilməsinin əhəmiyyətini xüsusi vurğulamışdı.



Ayrı-ayrı qoşun növlərinin bölmələri təlim günlərində göstərdilər ki, yüksək döyüş vərdişlərinə yiyələniblər və döyüş meydanlarında bu vərdişləri tətbiq etmək imkanına malikdirlər.

2016-cı ilin başa çatmasına o qədər də çox vaxt qalmayıb və əslində, irimiqyaslı təlimlər cari ildə Silahlı Qüvvələrimizin döyüş hazırlığı sahəsində qazandığı nailiyyətlərə son baxış xarakteri daşıyırdı. Təlimlər göstərdi ki, ordumuz döyüş potensialını ilbəil artırır və bölgəmizdə hərbi imkanlarına görə ən qüdrətli güc strukturudur.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Respublikasının Müdafiə naziri Moskva şəhərinə yola düşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının noyabrın 30-da keçiriləcək növbəti iclasında iştirak etmək üçün Rusiya Federasiyasının Moskva şəhərinə yola düşüb.*

Səfər çərçivəsində Müdafiə nazirinin rusiyalı həmkarı ordu generalı Sergey Şoyqu ilə görüşü də planlaşdırılıb. Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın müxtəlif aspektləri, regional təhlükəsizlik məsələləri müzakirə olunacaqdır. Həmçinin Azərbaycan və Rusiya Müdafiə nazirlikləri arasında 2017-ci il üçün əməkdaşlıq planının imzalanması nəzərdə tutulub.

Bundan əlavə, general-polkovnik Zakir Həsənovun bir sıra ölkələrin Müdafiə nazirləri ilə görüşləri də gözlənilir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***28 noyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 27 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə və Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Muncuqlu və Ağdam kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***29 noyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 24 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq və Əlibəyli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# “Mən Vətən torpağı, Vətən daşıyam”

*Vətən sevgisinin qüdrətinə bax! - əsgər özünü Vətənin torpağı, Vətənin daşı bilir ki, düşmənlərin atdığı daşlar torpağı yaralamasın. Təkcə əsgərlər deyil, hərbi xidmətə çağırış ərəfəsində olan gənclər də, ordumuza böyük ehtiramlarla yaşayan yeniyetmələr də belə düşünür. İstənilən tədbirin mənəvi dəyəri məhz bu düşüncəni hansı səviyyədə dərinləşdirməsiylə ölçülür. Bu amil Vətən sevgisidi, Vətənə sevgidi.*



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə yardımı, Müdafiə Nazirliyinin və Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin dəstəyi ilə keçirilən "Mən Vətən torpağı, Vətən daşıyam" vətənpərvərlik gecəsi də bu sevginin işığıydı. Rejissoru və aparıcısı Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani olan bu gərəkli tədbir mahiyyəti etibarilə Vətənə oğul olma şərti kimi anlaşılmalıdır. Oğul məqamında Vətənə torpaq, Vətənə daş olmalıdı, ömürləşməli ayları, illərini "Mən Vətən torpağı, Vətən daşıyam" kəlamına tapınıb yaşamalıdı...

Polkovnik Abdulla Qurbani tədbirin mahiyyətindən, Silahlı Qüvvələrin şəxsi heyətinin böyük tarixi şəxsiyyət Heydər Əliyevin ideyalarına sədaqətlə xidmət etməsindən və s. danışdı.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxışında mənəvi hazırlığın məqsədyönlülüyündən və vacibliyindən, vətənpərvərliyin kəsilməz proses olmasından danışaraq müəllifi İlahə Qismət olan layihəni vətənpərvərlik tədbiri kimi dəyərləndirdi. General vətənpərvərlik tərbiyəsinin daha da genişləndirilməsi üçün bütün vasitələrdən istifadə edilməsinin zəruriliyini də qeyd etdi, bu baxımdan incəsənətin böyük təsirə malik olduğunu xatırlatdı, aprel döyüşlərində qazanılan qələbəni həm də milli ruhun qələbəsi kimi dəyərləndirdi...

Müdafiə Nazirliyi Hərbi Orkestr Xidmətinin rəisi, professor general-mayor Yusif Axundzadə musiqinin mənəvi hazırlıqda əhəmiyyətini qeyd etdi, belə tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğuladı...

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri ictimai Birliyinin sədri Mehdi Mehdiyev də çıxışında qeyd etdi ki, belə tədbirlər Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi ruhunu yüksəldir, yüksək döyüş hazırlığına malik olan əsgər daha qətiyyətli olur, onun döyüş hazırlığını Vətən sevgisi tamamlayır. "Mən Vətən torpağı, Vətən daşıyam" tədbiri də məhz buna xidmət edir...

İkiqat paralimpiya çempionu İlham Zəkiyev çıxışında qeyd etdi ki, Azərbaycan Ordusunun hər bir əsgəri məhz "Mən Vətən torpağı, Vətən daşıyam" amalıyla xidmət edir. Onlar hərbi andda deyildiyi kimi, Vətən üçün canlarından keçməyə də hazırdırlar...

Şair Vahid Əziz çıxışında ədəbiyyatın mənəvi hazırlıq vasitəsi olmasından, ədəbiyyatla musiqinin vəhdətindən, bu vəhdətin vətənpərvərlik tərbiyəsinə təsirindən danışdı.



Digər çıxış edənlər də eyni mətləblər haqqında danışdılar, "Mən Vətən torpağı, Vətən daşıyam" kəlamının günümüzün kəlamı olduğunu qeyd etdilər. Bu çıxışları bir mətləb eyniləşdirirdi: "Yaşından, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq hər kəs bu fikri həyat amalı bilməlidir."...

Layihənin rəhbəri İlahə Qismət tədbirin keçirilməsində yaratdığı şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani və layihənin rəhbəri İlahə Qismət Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin "Vətən naminə" medalı ilə, Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının rəisi polkovnik-leytenant Zöhrab İmamquliyev və ansamblın kollektivi isə fəxri fərmanla təltif edildilər.

Xalq artisti Zümrüd Məmmədovanın, əməkdar artist Heydər Anatollunun, Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistlərinin ifasında səslənən mahnıların da, təqdim edilən rəqslərin də qayəsi "Mən Vətən torpağı, Vətən daşıyam" deyirdi. İfa edilən hər mahnı, hər rəqs bu kəlamın yaşarı olacağını təsdiqləyirdi...

Məqamında Vətənin torpağı, Vətənin daşı olmaq milli-mənəvi dəyərdir, şübhəsiz...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# “Əsgəri peşəmi sevirəm”

*Əsgər hazırlığı bütövlükdə Silahlı Qüvvələrin döyüş hazırlığının önəmli tərkib hissəsidir. Ona görə ki, orduda qarşıya qoyulan döyüş tapşırıqlarını həyata keçirən, maşın və texnikaları hərəkətə gətirən, silahlardan atəş açan bilavasitə bu hərbi qulluqçulardır.*

Xoşdur ki, bu gün Silahlı Qüvvələrimizdə əsgər hazırlığının mükəmməl bir sistemi mövcuddur. Əsgərlər tədris hissələrində hərbi vərdişlərə yiyələnərək və ixtisas hazırlığı kursunu keçərək hərbi hissələrdə həqiqi hərbi xidmətlərinin icrasına başlayırlar. Bu dəfə də hərbi hissələrimizdən birində öz peşəsini mükəmməl mənimsəmiş döyüşçülərlə ünsiyyətdə olduq.

Əsgər Bəhruz Kərimli nümunəvi, intizamlı davranışı ilə şəxsi heyətin hörmətini qazanıb. Zabit İlkin Taralov minaatan əsgərdən söhbət düşəndə bildirdi:

- Bölməmizdə öz işini bilən və əsgəri peşəsinə həvəslə yiyələnmiş döyüşçülərimiz çoxdur. Onlardan biri də minaatan taqımın əsgəri Bəhruz Kərimlidir. Bəhruz tərbiyəli, mərifətli bir döyüşçüdür. Öz əsgəri vəzifəsinə həmişə vicdanla yanaşır. Ona təhkim edilmiş minaatan cihazını yaxşı öyrənib və praktikada tətbiq etməyi bacarır. Hədəflərə qədər məsafələri düzgün çıxarmağı yaxşı mənimsəyib, heyətlərə koordinatları tez və dəqiq ötürməyi bacarır. Bir sözlə, öz əsgəri peşəsini yetərincə öyrənib və getdikcə peşəkarlığını daha da möhkəmləndirir. Verilən tapşırıqları məsuliyyətlə yerinə yetirən hazırlıqlı döyüşçülərimizdəndir.



Əsgər Bəhruz Kərimli Göyçay rayonunun Potu kəndində dünyaya gəlib. Əsgəri yaşı tamam olduqda digər silahdaşları kimi hərbi xidmətə yola salınıb. Valideynləri o zaman çağırışçıya şərəflə xidmət etməyi və Azərbaycan əsgərinin şərəfini uca tutmağı arzulamışdılar. Bəhruz da valideynlərinin öyüd-nəsihətinə sadiq qalaraq, öz əsgəri vəzifəsini can-başla yerinə yetirməkdədir.

Hərbi andiçmə mərasiminə qədər gənc əsgər kursuna cəlb edilən göyçaylı əsgər hərbi xidmətin sirlərini yetərincə mənimsəyib. Sonra ixtisas seçimi aparılarkən minaatan peşəsini seçib. Orta məktəbdə mənimsədiyi riyazi bilikləri döyüşçüyə hərbi xidmətdə gərəkli olub. Ona görə komandirləri Bəhruzu məsafəölçən vəzifəsinə təyin ediblər.

- Əsgəri ixtisasımı çox sevirəm, - Bəhruz Kərimli söhbətimizdə dedi. - Məsafəölçən cihazla hədəflərin koordinatlarını təyin etmək maraqlı işdir. Amma gərək hesablamaları dəqiq aparasan ki, heyətlər düşmən hədəflərinə sərrast zərbələr endirə bilsinlər. Komandirlərimin köməyilə bu ixtisası lazımınca öyrənmişəm.

Əsgər Kərimli də, silahdaşları kimi, aprel döyüşlərində iştirak edib və mövqelərimizə basqın edən düşmənə zərbələr endirmək üçün üzərinə düşən tapşırığın öhdəsindən bacarıqla gəlib. Bölmələrimizin ümumi uğurlarında minaatanlarımızın, o cümlədən əsgər Bəhruz Kərimlinin də payı var.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

AZƏRBAYCAN ORDUSU

## Ümummilli lider Heydər ƏLİYEV:

# Vətənpərvərlik insanın canında, qanında formalaşan ən ülvi hissdir

*Xalqımızın ümummilli lideri Heydər Əliyev çıxışlarının birində vətənpərvərlik məsələsindən danışaraq demişdi: "Vətənpərvərlik insanın canında, qanında formalaşan ən ülvi hissdir. Yüksək vətənpərvərlik duyğularına malik olmayan şəxs əsl vətəndaş ola bilməz."*

Hər bir xalq öz xüsusiyyətləri ilə tanınır, sayılır və başqa xalqlardan seçilir. Ulu Öndərimizin fikrinə əsasən demək olar ki, məhz Azərbaycan xalqı həmişə xalqlar arasında özünəxas xüsusiyyətləri ilə tanınıb və vətənpərvər xalq olduğunu sübuta yetirib. Bəlkə də bu ondan irəli gəlir ki, biz tarix boyu azadlıq və müstəqilliyimizi qanımız bahasına qazandığımız üçün Vətənimizi doğma anamız qədər sevirik, ona ana Vətən deyirik.

İki il əvvəl, yayın qızmar bir vaxtında düşmənlərimiz cəbhənin Ağdam rayonu istiqamətində atəşkəsi pozaraq mövqelərimizi zəbt etmək istəmişdilər. Amma onların bu niyyəti baş tutmadı, Azərbaycan Ordusunun həmin istiqamətdə yerləşən hərbi bölməsinin döyüşçüləri qətiyyətlə mübarizə aparıb erməniləri geri çəkilməyə məcbur etdilər. Həmin döyüşün iştirakçısı olan yüksək rütbəli zabitlərimizdən biri sonralar söhbətimizdə deyirdi ki, şəhid olan bir neçə əsgərlərimizi mövqedən çıxaran zaman bir döyüşçümüzün pulemyot silahına başını söykəyib həlak olduğunu gördük.

"Düşmən onun mövqeyinə nə qədər atəş açsa da, əsgər geri çəkilmir və son damla qanına qədər döyüşür. Onun bu fədakarlığı bu gün də hərbi hissədə dillər əzbəridir, burada xidmətə başlayan gənclərə belə bir mətin, qəhrəman soydaşımızın qısa, lakin şərəfli ömür yolu daim nümunə göstərilir". Bax, budur, əsl vətənpərvərlik, budur, hər bir azərbaycanlının vətənsevərlik nümunəsi.

Əslinə baxsaq, Vətən sevgisi mücərrəd bir anlayış deyil, o fədakarlıq, şücaət və məsuliyyət tələb edən gerçək mənəvi bir qüvvədir. O qüvvə ki, son nəfəsinədək doğulduğun torpaq uğrunda mübarizə aparmaqdan çəkinmirsən. Bax, bu zaman bütün varlığınla başa düşürsən ki, nədir vətənpərvərlik. Elə yaxın tariximizdə yüzlərlə, minlərlə vətəndaşımız Qarabağ müharibəsi meydanlarında əsl vətənpərvərlik nümayiş etdirərək ən uca mənəvi zirvəyə - şəhidliyə ucaldı.



Aprel döyüşlərindən sonra Bərdə-Ağdam rayonlarına səfər edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəbhə xəttinə gedərək əsgər və zabitlərin bir qrupuna dövlətin yüksək mükafatlarını təqdim etmişdi. Prezidentin qarşısında çıxış edərək Vətənimizin ərazi bütövlüyünü təmin etmək üçün hər an döyüşməyə hazır olduğunu bildirən zabitlərimizdən biri Ali Baş Komandana verdiyi sözünə aprel savaşında misilsiz qəhrəmanlığı ilə əməl etdi. Söhbət Azərbaycanın Milli Qəhrəmanı olan şəhid mayorumuz Samid İmanovdan gedir...

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu yaxınlarda Füzuli rayonunda cəbhə xəttində aprel döyüşlərində fədakarlıq göstərmiş hərbi qulluqçularımızın bir qrupunu da mükafatlandırdı. Azərbaycan Ordusunun cəbhə xəttindəki hərbi bölmələrinin şəxsi heyəti yeni qəhrəmanlıq nümunələri göstərmişdi. Bir neçə istiqamətdə düşmənə endirilən sarsıdıcı zərbələr nəticəsində mühüm əhəmiyyət kəsb edən yüksəkliklər bir qismi işğaldan azad edildi. Bu il aprelin əvvəllərindəki döyüşlər düşmənlərimizə əsl həqiqəti dərindən anlatdı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu məqama aydınlıq gətirdi: "Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır". Dövlətimizin rəhbəri əminliklə vurğuladı ki, ordumuzun döyüş qabiliyyəti ilə bərabər, vətənpərvərlik ruhu da yüksəkdir.

"Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik!". Prezidentimizin bu sözləri düşmənlərimizə ən güclü mesajdır.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

## Ermənistan silahlı qüvvələrinə məxsus PUA məhv edilib



Noyabrın 26-sı axşam saatlarında cəbhənin Füzuli rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq atəşlə məhv edilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 28-də Tərtər rayonu istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.*




Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik və onun səhra köməkçisi Jiri Aberle keçiriblər.

Ermənistan silahlı qüvvələrinin nəzarətində olan işğal edilmiş Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Piter Şvedberq aparıblar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

### Gənc zabitlərimiz

# Ömür yolu - Vətən yolu

Hərbi hissədə gənc əsgərlərin andiçmə mərasimindəydim. Oğluna gözdolusu baxan, qürurlanan anaların, azyaşlı uşaqların, məktəblilərin baxışlarında uçunan marağı, həvəsi hiss etmək çətin deyildi. Gənc leytenantın da onlara böyük sevgilərlə baxması diqqətimdən yayınmadı...

Cavid Həşimov bir qədər çəkingənliklə "Azərbaycan Ordusu" mənə daha doğmadı" - dedi. Maraqla ona baxdım. "Ötən ilin payızında "Bayrağım - milli qürurum" inşa müsabiqəsində ikinci yerə layiq görüldüm. Qəzetinizdə mənim haqqımda məqalə dərc edilmişdi, məni mükafat qədər sevindirmişdi". Onu tanıdım, yazdığı inşanı xatırladım. Məntiqli yazı idi, bayrağımıza sevgisi olduqca duyğusallıqla ifadə edilmişdi...

Cavid hərbçi ailəsində boya-başa çatıb. 2010-cu ildə Bakı şəhərində 20 saylı orta məktəbi bitirib. "Xəzər" Universitetinin məzunudu. İxtisasca psixoloq-terapevtdir. Bununmu təsiriydi, əsgər kimi hərbi xidmətdə bilavasitə gördüklərinimi, aprel döyüşlərində qazanılan qələbəninmi, özü də qəti fikir bildirmədi. Hərbi xidmətinin sonlarında zabit olmağı qərara almışdı. Nümunəvi əsgər idi. Nizamnamələrin tələblərinə ciddi əməl edirdi, komandirlərinin əmr və göstərişlərini sözsüz



yerinə yetirirdi. Onun xahişini, istəyini nəzərə aldılar. İndi leytenantdır...

Kifayət qədər maraqlı ixtisas seçən, ali təhsil alan gəncin bu seçiminin bircə yozumu var: Vətənə xidmət. Digər sahələrdə çalışanlar da bu və ya digər mənada (və səviyyədə!) Vətənə xidmət edirlər. Vətənə hərbçi kimi xidmətin qüruru, dəyəri digərləri ilə müqayisəyə gəlməz. Bəlkə bunu düşünüb Cavid?..

- Aprel döyüşləri mənim də düşüncələrimin axarını dəyişdi. Qələbə ovqatı hamı kimi sevincimi kükrətdi. O döyüşlər təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Belə bir ordunun zabiti olmağı qərara aldım. Valideynlərim bu qərarıma xeyir-dua verdi. Fəxr edirəm ki, belə düşünənlərin sırasındayam...

Silahlı Qüvvələrimizin şəxsi heyətinin istər döyüş, istərsə də mənəvi hazırlığı həm də şəxsi heyətin sevgisiylə bağlıdır. Vətənini sevənlər hərbi ixtisasını mükəmməl öyrənir. Cavid deyir ki, Təlim və Tədris Mərkəzində öyrəndiklərimlə kifayətlənə bilməzdim. "Təcrübəli zabitlərin məsləhətlərini də dərslik bilirəm. Öyrəndikcə hərbi xidmətin nə qədər gərəkli olduğunu daha duyğusallıqla dərk edirəm."

Cavid geniş dünyaduyumuna malik zabitdir. Onunla söhbətimiz, əsasən, Vətən oldu, Vətən torpaqlarının ağrı-acıları oldu, əsgərlərin qələbə ruhu oldu.

Ötən il müxtəlif bölgələrdə "Xalq ordunun, ordu xalqın dayağı" adlı kütləvi vətənpərvərlik tədbiri keçirilmişdi. Cavid Həşimov o tədbirləri xatırladaraq dedi ki, aprel döyüşləri belə tədbirlərin gərəkliyini təsdiqlədi. "Silahlı Qüvvələrimizdə irimiqyaslı islahatlar aparıldığını tələbə olanda mən də eşidirdim. Hərbi xidmətə başlayanda bunu da gördüm, islahatların nəticələrini də. Hərbçilərin Ali Baş Komandanın, Müdafiə nazirinin hər bir əmr və tapşırıqlarını böyük məsuliyyətlə yerinə yetirməsi məni həm zabit kimi, həm də vətəndaş kimi sevindirir."

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

# "Qalib əsgərlərimizlə işğaldan azad edilmiş torpaqlarımızda da görüşəcəyik"

## Böyük Vətən müharibəsi veteranları cəbhə bölgəsində

*Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsində Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri yaxından iştirak edirlər.*



Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun rəhbərliyi ilə bir qrup Böyük Vətən müharibəsi veteranı cəbhə bölgələrinə səfər edərək şəxsi heyətlə görüşüb, onların xidmət şəraiti ilə tanış olub, problem və qayğıları ilə maraqlanıb, Vətən müdafiəçilərinə ağsaqqal öyüd-nəsihəti verib və işğal edilmiş torpaqlarımızın tezliklə düşmən tapdağından azad edilməsi naminə onlara uğurlar arzulayıb.





Veteranlar hərbi hissə komandanlığı tərəfindən səmimiyyətlə qarşılanıb. Onlara hərbi hissənin yaranma tarixi, keçdiyi döyüş yolu, şəhid və qəhrəmanları haqqında ətraflı məlumat verilib.

Xalqımızın ümummilli lideri, müasir, mütəşəkkil ordumuzun baş memarı Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi hörmət və ehtiramla yad edilib.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbaninin müşayiəti ilə veteranlar Beyləqan rayonunun Birinci Şahsevən kəndinə gedərək Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun ev muzeyini ziyarət edib, 90 yaşlı bacısı ilə görüşüb və onun qəhrəman qardaşı haqqında xatirələrini dinləyiblər.

Döyüşçülərlə ilk görüş aprel döyüşləri zamanı düşmən tapdağından azad edilən Lələtəpə zirvəsində reallaşıb.

Zabit Rəşad Piriyev dövlətimizin və ordumuzun gücünü, xalqımızın həmrəyliyini, vətənpərvərliyini nümayiş etdirən aprel döyüşləri və onun qəhrəmanları haqqında danışıb. Şəhidlərin xatirəsi yad edilib. Bir neçə gün əvvəl iri-miqyaslı təlimlər ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bu zirvəyə gəlişi, döyüşdə fərqlənən bir qrup hərbi qulluqçunu mükafatlandırması, döyüşçüləri mübarizəyə səsləyən qətiyyətli çıxışı və düşmənə tutarlı mesajları bir daha xatırlanıb.

Döyüşlərdə göstərdiyi şəxsi şücaətə görə hələ aprel ayında Prezidentin sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı, bir neçə gün öncə isə Prezidentin şəxsi hədiyyəsi ilə mükafatlandırılan əsgər İmran Remixanov hər an Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bildirib. Qeyd edib ki, yaşları 90-ı çoxdan ötmüş veteranları azad etdikləri strateji yüksəkliklərdə görməkdən böyük qürur duyur və aprel döyüşlərindəki Qələbəni hər an təzələməyə qadirdirlər.

Veteranlar təşkilatının sədr müavini polkovnik C.Xəlilov hər bir Azərbaycan vətəndaşının, eləcə də hər bir veteranın ordumuzun uğur və nailiyyətlərindən fərəhləndiyini, Azərbaycan əsgərinə həmişə arxa-dayaq olduqlarını diqqətə çatdırıb. Müdafiə Nazirliyinin rəhbərliyinə veteranlara göstərilən diqqət və qayğıya, bu kimi tədbirlərin keçirilməsi üçün yaradılan şəraitə görə respublika veteranlar ordusunun minnətdarlığını bildirib.



Xalqımız üçün, o cümlədən Azərbaycan Ordusunun şəxsi heyəti üçün həmişə əziz və dəyərli olan insanların, bəşər üçün ən böyük fəlakət sayılan faşizm taunu ilə üz-üzə dayanıb mübarizə apararaq ölümün caynağından qurtulmuş veteranların keçdikləri şanlı döyüş yolundan söhbət açılıb.

97 yaşlı müharibə veteranı Bəkir Məmmədov, Berlinədək döyüş yolu keçmiş bombardmançı təyyarəçi Daməd Vəliyev çıxış edərək ön səngərdə Azərbaycan əsgəri ilə bir yerdə olduqlarını, Lələtəpə zirvəsinə qalxdıqlarını həyatlarının ən xoş anı hesab edib və tezliklə Şuşada, Xankəndidə, Laçında, Kəlbəcərdə və digər yolumuzu gözləyən yurd yerlərimizdə qalib Azərbaycan əsgəri ilə görüşəcəklərinə əminliklərini bildiriblər.

Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təsis etdiyi yubiley medalları təqdim edilib.



Çay süfrəsi arxasında səmimi söhbət həm əsgərlərdə, həm də qonaqlarda xoş duyğular oyadıb. Xatirələr veteranları gənclik illərinə qaytarıb, əsgərlərimiz isə babaların qəhrəmanlıq ənənələrini şərəflə davam etdirəcəklərinə söz veriblər.

Cəbrayıl, Füzuli, Xocavənd, Ağcabədi, Beyləqan rayonları istiqamətində Vətən, xalq və dövlət qarşısında əsgəri borclarını layiqincə yerinə yetirən Vətən müdafiəçiləri ilə biri-birindən maraqlı görüşlər keçirilib.

Veteranlar əsgərlərlə bir yerdə nahar edib, eyni yataqxanada gecələyib, onların təlimlərini izləyib, silah və hərbi texnikalarla tanış olub və cəbhə bölgəsindən xoş təəssüratlarla ayrılıblar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

Tibb xidməti

# Harada həkim varsa, orada ümid doğulur

*Ölkəmizin hərbi səhiyyəsi günü-gündən inkişaf edir və bu sahədə nailiyyətlər artmaqdadır. Hərbi tibb xidmətində ən müasir texnologiyalar tətbiq edilir və bu istiqamətdə geniş fəaliyyət proqramı həyata keçirilir. Başlıcası odur ki, Qarabağ müharibəsinin ağır sınaqlarından çıxmış Silahlı Qüvvələrimizin Baş Klinik Hospitalının maddi-texniki bazası daha da möhkəmlənir və müasirləşir. Bu gün əminliklə demək olar ki, burada yüksək ixtisaslı tibb heyəti çalışır. Onlar Vətənimizin keşiyində dayanan əsgər və zabitlərimizin sağlamlığının qorunmasında əllərindən gələni əsirgəmirlər.*



Hələ qədim zamanlardan müxtəlif xəstəliklərə düçar olmuş insanların həyatı uğrunda mübarizə aparan həkimlər şəfaverici bir auraya malik şəxslər kimi dəyərləndirilirdi. Homer "İlliada" əsərində yazırdı ki, bir həkim ömrü çox-çox insan ömrünə dəyər. Bu



baxımdan həkim sənətinin qiymətli və zəngin əxlaqi ənənələri daim əhəmiyyət kəsb edir. Həkimlər fədakar insanlardır.

Baş Klinik Hospitalın tibbi reabilitasiya bölməsinə daxil olanda xəstələr müasir tibbi avadanlıq və aparatlarla təchiz edilmiş kabinələrdə təyinat üzrə müalicə-proseduralar qəbul edirdilər. Bölmənin rəisi tibb xidməti polkovnik-leytenantı Faiq Nəsibov həkim peşəsinin özünəməxsus xüsusiyyətlərindən, sağlamlığın insan həyatındakı böyük rolundan söhbət açır: "Məşhur rus yazıçısı və həkim Anton Çexov söyləmişdi ki, cəmiyyətin ən şairanə, ən gülərüzlü şəxsiyyətləri olmaqla onlar insanları fərəhləndirir, həvəsləndirir və nəcibləşdirirlər. Məlumdur ki, tibb işçilərinin fəaliyyətinin nəticəsi insanların taleyinə əsaslı təsir göstərir. Bu isə ağ xalat geymək, insanları müalicə etmək hüququ qazanmış hər bir şəxsin məsuliyyətini artırır. Xüsusilə, mürəkkəb, ekstremal şəraitdə həkim fəal, sərbəst, qətiyyətli olmalıdır."

Sağlamlığın qorunub möhkəmləndirilməsinin cəmiyyət üçün nə qədər əhəmiyyətli olduğunu deyən həkim onu da vurğuladı ki, insanların ən xoş arzuları ilk növbədə elə bununla əlaqədardır. "Görüşərkən insanlar bir neçə dəfə "sağ ol", "salamat ol", "sağlamlıq arzu edirəm" kimi sözləri işlədirlər. Hər bir insan fiziki, əqli cəhətdən sağlam olmalıdır. Bu, mütləqdir. İnsan ilk olaraq sağlamlığının qayğısına qalmaqdan ötrü ətraf mühitdən səmərəli istifadə etməli, qida rejimini gözləməli və zərərli vərdişlərdən uzaq olmalıdır. Biz hərbi həkimlər, demək olar ki, daim ektremal şəraitdə çalışırıq, öz üzərimizdə ikiqat məsuliyyət hiss edirik. Ona görə ki, bizim əlimizdən şəfa tapan insanlar gecə-gündüz Vətənin müdafiəsində dayanan hərbçilərimizdir. Bizim vəzifəmiz onların sağlamlıqlarının keşiyində dayanmaqdır. Çünki onlar xalqımızın dinc, rahat, sakit yaşaması üçün, torpaqlarımızın azadlığı naminə canlarını qurban verməyə hazır olan fədakar insanlardır."

Qeyd edim ki, Faiq həkim böyük bir kollektivə rəhbərlik edir. Kollektivdə hər kəs - həkim, tibb bacısı, həmçinin bölmədə müalicə alan xəstələr də söhbətlərində onun sadə, təvazökar, heç kimdən qayğısını əsirgəməyən, nurlu bir insan olduğunu söylədilər. O, bu işığın, bu nurun mənbəyini ailə mühitindən - 40 ildən artıq Azərbaycan Tibb Universitetində terapiya kafedrasının dosenti olmuş atası Əlif Nəsibovdan götürüb. F.Nəsibov 1996-cı ildən Azərbaycan Ordusunun sıralarında şərəflə xidmət edir, hərbi anda, Hippokrat andına sadiq qalaraq vəzifə borcunu layiqincə yerinə yetirir. 12 ildir ki, xidmət etdiyi bölmədə çalışır.

Söhbətimi bölmənin ordinatoru Ellada Əliyeva ilə davam etdirirəm. O da hərbçilərimizin sağlamlığı keşiyində dayanmağı özünə müqəddəs vəzifə hesab edir. İşində hər zaman məsuliyyətliliyi və qətiyyətliliyi ilə seçilib. Bu illər ərzində Ellada xanımın şəfalı əlləri ilə neçə-neçə hərbi qulluqçu öz sağlamlığına qovuşub və yenidən xidmət etdiyi hərbi hissəyə qayıdıb. Onun ömür-gün yoldaşı Vüqar Əliyev də vaxtilə hərbi həkim işləyib. Hazırda ehtiyatda olan tibb xidməti polkovnik-leytenantıdır.

Tibb elminin ən qədim elmlərdən biri sayıldığını deyən Ellada xanım söhbətinə görkəmli alman ədibi Henrix Geynenin fikirləri ilə başlayır: "Ən həqiqi gözəllik sağlamlıqdır. Bu sözlərin hansı zamanda deyilməsinə baxmayaraq, bu gün də günümüzün reallıqlarını özündə əks etdirir. Elmin, texnikanın sürətlə inkişaf etdiyi dövrümüzdə tibb elminin dərindən öyrənilməsi aktual məsələlərdəndir", - deyə müsahibim söhbətinə davam edir:

- Fəlsəfi baxış həkim üçün xüsusi əhəmiyyət kəsb edir. Müasir həkim geniş dünyagörüşlü, nəzəri və klinik elmlərin əsas metodoloji məsələlərindən baş çıxaran bir şəxs olmalıdır. Həkim-xəstə münasibəti, həkimlik etikası və təbabət fəlsəfəsi kimi görüşləri özündə ehtiva etməlidir.

Havaların kəskin soyuması nəticəsində onurğa və oynaq xəstəliklərinin fəallaşmasının müşahidə edildiyini bildirən təcrübəli həkim bölmədə yerləşdirilən bəzi tibbi avadanlıqların təyinatı barədə danışdı: "Amplipuls - onurğa sütunu xəstəliklərinin, elektrofores - oynaq xəstəliklərinin, parafin aplikasiyası isə oynaq sınıqlarında və oynaqlarda istifadə edilir. Burada müalicə alan xəstələr tez bir zamanda sağalır və müalicənin nəticələrindən məmnun qalırlar."

Aprel döyüşlərində yaralanan tank heyət nəfəri sürücü-mexanik kiçik çavuş Razi Cavadov müalicəsinin düzgün aparılmasında, yenidən sağlamlığına qovuşmasında ona əməyi keçən hər kəsə, xüsusilə ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Rəşid Muradova öz minnətdarlığını bildirdi.



Tank komandiri gizir Sahil Hüseynov da aprel döyüşlərində fəal iştirak edib. Onun həkimi isə ordinator Nəzakət Nəsirovadır. Burada aldığı müalicənin səhhətində yaranan problemlərin aradan qaldırılmasına müsbət təsir göstərdiyini deyən döyüşçü tibb işçilərinin xəstələrə necə böyük diqqət və qayğı ilə yanaşdığını, onların mehriban, gülərüz, səmimi olduqlarını bildirdi.

Baş tibb bacısı çavuş Nurdanə Babayeva, tibb bacısı Sevda xanım və başqaları da çevik, məsuliyyətlidirlər, xəstələrinin sağlam həyata qovuşması üçün var qüvvələrini əsirgəmirlər.

Bölmənin baş ordinatoru kapitan Elvin Məmmədli də xidmətində peşəkarlığı ilə seçilən həkimlərimizdəndir. O 2006-cı ildə ATU-nun hərbi tibb fakültəsini bitirib. 2008-ci ildə Xorvatiya Respublikasında yaralıların döyüş meydanlarından təxliyyə olunması təlimlərində iştirak edib. 2009-cu ildə Türkiyə Respublikasının Samsun şəhərində Səhra Səhiyyə Məktəbində üç ay təhsil alıb və taktiki tibbi döyüş təlimi keçib. 2013-cü ildə Türkiyənin Ankara şəhərində fizioterapiya və reabilitasiya mərkəzində üç aylıq kurs bitirən E.Məmmədli xidmətinin son vaxtlar cəbhə bölgələrində keçdiyini bildirdi: "Aprel döyüşlərinin iştirakçısıyam. "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunmuşam. Qazandığım təcrübə bugünkü uğurlarımda böyük rol oynayır".



Silahlı Qüvvələrin Baş Klinik Hospitalında tibbi reabilitasiya bölməsindən götürdüyüm qeydlərimin sonuna bunları da əlavə edirəm: "Doğrudan da, həkim adı şərəfli və əlçatmazdır. Şəfaverici qüvvəyə malik olan həkimlər İlahi tərəfindən seçilmiş insanlardır. Harada həkim varsa, orada ümid doğulur".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Etimadı doğrultmaq üçün...

*Bu gün ordumuzun sıralarında hərbçi qadınlar da xidmət edirlər. Onları sırada dayanan, təlimdə iştirak edən, atəş açan görəndə qürur hissi keçiririk. Bütün bunları müşahidə edəndən sonra düşünürsən ki, doğru deyiblər: "Aslanın erkəyi, dişisi olmaz!" Bu gün şəninə şeirlər yazılan, mahnılar bəstələnən mətin qadınlarımızın davamçıları əyinlərinə hərbi forma geyinərək ordumuzda şərəflə xidmət edirlər.*



Çavuş Xatirə Cavadovanın xidmət yolu ilə tanış olarkən öyrəndim ki, Zərdab rayonunda dünyaya göz açıb. Orta təhsilini başa vurandan sonra ordu sıralarında xidmətə başlayıb. Ötən illəri xatırlayan çavuş dedi:

- Hələ kiçik yaşlarımdan orduya, hərbi sahəyə həvəsim var idi. Elə bu həvəs də məni hərbə gətirdi. 2010-cu ildən "N" hərbi hissəsində şəxsi heyət bölməsinin operatoru kimi xidmət etdim. Bir qayda olaraq, həmişə üzərimə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışırdım. Bu gün hərbçi kimi ordu sıralarında olmağımdan qürur duyuram.

Xeyli müddətdir ki, çavuş Xatirə Cavadova Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində kadrlar bölməsinin operatoru vəzifəsində xidmətini davam etdirir. İşinə məsuliyyətlə yanaşan çavuş verilən əmr və tapşırıqları bacarıqla icra etməyə çalışır. İxtisas hazırlığı sınağından uğurla keçdiyinə görə komandanlıq onu "Usta" məharət dərəcəsinə layiq görüb.

Çavuş X.Cavadova həm də idmana böyük maraq göstərir. Silahlı Qüvvələrin səmti müəyyənetmə birinciliklərində müntəzəm iştirak edir. Ötən iki ildə keçirilən birinciliklərdə yüksək peşəkarlıq göstərib. Həm 100 metr, həm də 3000 metr məsafələrə qaçışda ürəkaçan uğurlara imza atıb.

Təcrübəli hərbçi komandanlığın etimadını doğrultmaq üçün xidmətinə daha məsuliyyətlə yanaşır, üzərinə düşən tapşırıqları vaxtında və qüsursuz yerinə yetirməyə çalışır.

**Vahid MƏHƏRRƏMOV**

# "Qələbə ərəfəsindəyik"

*Vətənpərvərlik elə bir duyğudur ki, uşaq yaşlarından ailədə, məktəbdə, sonra isə cəmiyyətdə aşılanır. İllər ötür, yaşa dolursan. Həyatı, ana-atanı, Vətəni dərk edirsən. Müqəddəsliyi hiss edirsən... Bu hiss sevgidir... Vətən sevgisi elə bir hiss, elə bir duyğudur ki, bu sevgi, hiss uğrunda canını verməyə hər an hazırsan. El arasında belə bir ifadə var, "Can hər şeydən şirindir." Lakin Vətən sevgisi candan da şirindir. Cəmiyyətdə tutduğu yerdən, çalışdığı vəzifədən asılı olmayaraq bu torpağın havasını, suyunu içən, çörəyini yeyən hər bir azərbaycanlıda bu sevgi var. Vətənini sevməyən onsuz da azərbaycanlı deyil. Ölməz şairimizin "Vətən" şeirində deyildiyi kimi...*

*Saxlaram gözlərim üstə onu mən,*
*Ölərəm əldən əgər getsə Vətən.*
*Vətənin neməti nisyan olmaz,*
*Naxələflər ona qurban olmaz.*

Vətən sevgisini ömrünün mənası bilən gizir Cavidan Hüseynov doğma torpağa qəlbən bağlı olan hərbçilərimizdəndir. Kürdəmirdə zəhmətkeş bir ailədə dünyaya gəlib. Məkrli və hiyləgər qonşumuz Ermənistanın ölkəmizə ərazi iddiasına başladığı müharibə illərində azyaşlı olsa da, bu müharibə barədə çox eşidib, öyrənib. Böyüyüb boya-başa çatdıqca ermənilərin tarix boyu törətdikləri vəhşiliklərə bir daha kitablardan, filmlərdən şahid olub. Bütün bunlar vətənpərvər azərbaycanlı kimi Cavidanın da qəlbini ağrıdıb, yuxularını qarışdırıb. Və gələcək həyat yoluna, peşə seçiminə təsirsiz ötüşməyib.



Xidmət vaxtı çatanda tay-tuşlarından geri qalmayıb. Böyük həvəs və sevinclə müddətli həqiqi hərbi xidmətə yollanıb. Ordu həyatında nümunəvi əsgər kimi formalaşan Cavidan tərxis olunduqdan sonra ata-anasının yanına qayıdıb. Həyatını hərbi sahəyə bağlamaq qərarına gəlib. Bu qərarını valideynlərinə açıqladıqda ailəsinin tam dəstəyini alıb. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə üz tutaraq gizir hazırlığı kursuna qəbul olunub. Kursu müvəffəqiyyətlə başa vurduqdan sonra cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmətə başlayıb.

Aprelin əvvəllərində cəbhədə baş verən döyüşlərdə iştirak edən Cavidanın qorxmazlığı və qəhrəmanlığından komandirlərinin fərəhlə danışması bu peşəni əbəs yerə seçmədiyinin göstəricisidir.

Söhbətimiz zamanı vətənpərvər gizir gözlərini bir nöqtəyə zilləyir, sanki o anı yenidən yaşayır. Üzündə məğrurluq, gözündə düşmənə nifrət hiss olunurdu.

"Döyüşməliydik, düşmənə layiqli cavab verməliydik. Biz aprel döyüşlərində Azərbaycan Ordusunun qüdrətini həm düşmənə, həm də dünyaya göstərdik. İllərcə güclü erməni ordusu deyə-deyə dünyaya car çəkən Ermənistan rəhbərlərinin yalanını ifşa etdik. Torpaqlarımızın bir qismini qaytardıq. Və hər kəs Azərbaycanın öz əzəli torpaqlarını qaytarmaq iqtidarında olduğunun şahidi oldu. Bütün şəhidlərimizin ruhu şad olsun", - Cavidan Hüseynov belə dedi.

Döyüşçülərimizlə söhbətləşəndə görürük ki, hamısının amalı, məqsədi birdir: işğalda olan torpaqlarımızı azad etmək, Vətən keşiyində ayıq-sayıq dayanmaq.

Hər birinin son kəlməsi eynidir: Qələbə ərəfəsindəyik...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər:
## hadisələr, faktlar

### İran neft şirkətinin helikopteri qəzaya uğrayıb



İranın Milli Neft şirkətinə məxsus helikoptert qəzaya uğrayaraq Xəzər dənizinə düşüb.

Bu barədə xəbər verən İranın Tasnim xəbər agentliyi bildirib ki, qəza nəticəsində 5 nəfər ekipaj üzvü həlak olub. İlkin ehtimala görə, qəzaya səbəb texniki nasazlıq olub. Hazırda mütəxəssislər hadisə yerində gedən araşdırmalara başlayıblar.

### Mosul əməliyyatı: daha 7 bölgə azad olunub, 19 yaraqlı öldürülüb



İraq ordusu Mosulun İŞİD-dən azad edilməsi əməliyyatının gedişində daha 7 bölgəni geri alıb və 19 yaraqlını məhv edib.

Yaraqlılardan 4-ü beynəlxalq koalisiyanın şəhərin cənubundakı Eş-Şəmsiyyat kəndində terrorçuları daşıyan avtomobilə endirdiyi hava zərbəsi nəticəsində, 6-sı hökumət qüvvələrinin Cilyuhan kəndində apardıqları əməliyyatların gedişində öldürülüb. Diclənin şərqində həyata keçirilən əməliyyatda isə 9 terrorçu və bomba yüklü bir avtomobil zərərsizləşdirilib.

İraq Müdafiə Nazirliyindəki mənbələrdən agentliyin müxbirinə verilən məlumata görə, ordu hissələri Mosulun şimalında yerləşən əl-Qahirə məhəlləsinin təxminən üçdəbirini, qərb istiqamətində isə 6 kəndi geri alıb.

Xatırladaq ki, Mosulun İŞİD-dən azad edilməsi əməliyyatı artıq 40 gündür ki, davam edir. Əməliyyatlara ABŞ başda olmaqla beynəlxalq koalisiyanın döyüş təyyarələri dəstək verir.

### Göyərtəsində Braziliya futbolçularının olduğu təyyarə qəzaya uğrayıb



Göyərtəsində Braziliyanın "Şapekoense" klubu futbolçularının da olduğu təyyarə Kolumbiyada qəzaya uğrayıb.

Univision telekanalının yaydığı məlumata görə, təyyarənin göyərtəsində 72 nəfər sərnişin və 9 ekipaj üzvü olub. Mi Oriente portalı yazır ki, təyyarə yanacaq çatışmazlığı səbəbindən Antiokiya əyalətinin La Unon rayonunda yerə düşüb. Kolumbiyanın Jose Maria Cordova aeroportu administrasiyası iqlim şəraitinə görə qəza yerinə getməyin çətinləşdiyini bildirib.

Təyyarə Kolumbiyanın Medelin şəhərinə uçurdu. Noyabrın 30-da burada Cənubi Amerika kuboku turniri çərçivəsində yerli "Atletiko Nasonal" və Braziliyanın "Şapekoense" klubları arasında oyun keçirilməli idi.

### İranlı turistlər Rusiyaya vizasız səfər edə biləcəklər



Yaxın vaxtlarda Rusiya ilə İran arasında turist qruplarının vizasız səfərləri barədə hökumətlərarası sazişin imzalanacağı gözlənilir. Bundan əlavə, iki ölkənin işgüzar dairələrinə - hüquqi şəxslərə, şirkətlərə və müəssisələrə tərəfdaşlarını qarşılıqlı şəkildə dəvət etmək imkanı veriləcək.

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova İranın İRİ Dövlət teleradio şirkətinə müsahibəsində bildirib.

M.Zaxarovanın fikrincə, viza rejiminin sadələşdirilməsi iki ölkənin işgüzar dairələrinin əməkdaşlığı, turizmin inkişafı üçün şərait yaradacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Ovqat

# Payızda yaz duyğuları




*Hər fəslin öz gözəlliyi var, hər fəsil öz görkəmində gözəl olur. Hərdən duyğular bu qanunauyğunluğa tabe olmur....*

Payızdı. Göy üzü hərdən tutulur, hərdən açılır. Ağaclarda budaqları, budaqlarda yarpaqları töyşüdən çisəyin düşüncələrimin nizamını pozmağa gücü, qüdrəti çatmır. Xırdaca-xırdaca yağan yağışa qoşa ovuc açmışam. Qoşa ovucum damlaların görüş yeridi elə bil; ovcumda damla damlaya söykənir, damla damlaya sığınır. Bir nəfəs dərimi vaxt ötüşüncə gözlərim bir ovuc suyun sehrinə düşür - elə bilir yazdı. Bu bir ovuc suyu Cıdır düzündə kolluğun qalınlığına sığınmış çiçəklərin həsrətdən saralmış ləçəklərinə çiləmək keçir könlümdən. Bu bir ovuc suyu gözəlim çiçəklərin ləçəklərinə çiləyəm, ləçəklər göz açıb-yumunca təravətlənə, sevdalılar da, qalib əsgərlər də, qalib əsgərlərin duruşunu, baxışını şükranlıq bilən yeniyetmələr də ləçəkləri təravətlənən çiçəklərin qənşərində ayaq saxlaya, baxdıqca baxa. Ləçəklərin incə titrəyişini gözlərinə, gözlərindən könlünə köçürənlərin marağını, sevincini, sevgisini gözlərimə, gözlərimdən könlümə köçürə-köçürə "Bu yaz bir başqa yazdı!" - deyəm. Səsimi eşidincə "Şuşanın dağları" Şuşanın dağlarının pərişan tellərini daraqlaya, dağların qırışığı açıla, bulaqların çeşmələrin səsi "Heyratı"ya qarışa, izlər, cığırlar, yollar gərnəşə, izlər cığırlardan, cığırlar yollardan yapışa, yollar açalaq-umalaq illərlə gözləri yollarda qalan baş daşlarına yetirə. Ləçəkləri təravətlənmiş çiçəkləri dərənlər də, baş daşları da, şəhidlərimizin ruhu da bu kövrək məqamı gözaydınlığı bilə...

Təbiətdə payızdı. Döyüş növbətçiliyinə gedib qayıdan əsgərləri düşünürəm. Onlar da səngərlərin o üzündəki çiçəkləri çiçək kimi, o çiçəklərin ləçəklərini ləçək kimi görmək istəyir. Döyüş növbətçiliyindən qayıdan əsgər xəyallarının cazibəsinə düşür yəqin. Zamanın axarını qabaqlayaraq pıçıldayır: "Gözlə məni...". Onda xırdaca-xırdaca əsən meh gərnəşir, çılğınlaşır, əsgərin kəlmələrini dodaqlarından qoparıb uzaqlaşır. Zamanın bu anında ayrı məkanda bir çeşmə başında ləçəklərinə sarı xallar düşən bir çiçəyin yaxınlığında "Gözləyirəm..." deyənə tələsir. "Gözlə məni" deyənin ürəyinə damıb ki, sevdası gözləyir onu, "Gözləyirəm..." deyənin ürəyinə damıb ki, bu sazaqda da "Gözlə məni" deyir sevdası...

Təbiətdə payızdı...

Sazaqdı.

Dağlarda, yüksəkliklərdə şaxtadı yəqin. Nə sazaq, nə də şaxta Azərbaycan əsgərinin səngərlərinə yaxın düşə bilmir - buna qüdrəti çatmaz. O səngərlər əsgərlərimizin Vətən sevgisiylə isinir. O səngərlərin bürüncəyi yaz ovqatıdı. Sazaq, şaxta bu ovqata kar etmək gücündə deyil. Gücsüzlüyünü hiss edən sazağın, şaxtanın "qolu yanına düşür"...

Təbiətdə payızdı, könlümdə yazdı...

"Yol verin əsgər gəlir" mahnısının sədalarını eşidirəm. Görənlər də bu oxumaya qoşulur, duyanlar, hiss eləyənlər də. Mənə elə gəlir ki, bu möhtəşəm birlik dağları da, yüksəklikləri də "tərpədir"...

Duyğularım yaz havalıdı...

Yenə yaz gələcək...

Yenə yağış yağacaq...

Yenə dağlar başında Dədə Qorqud öyüdüycə tonqallar çatılacaq. O tonqalları Azərbaycan əsgəri çatacaq, məmləkətimizə yenə sevinc yaşadacaq. Bu dəfə bütöv gözaydınlığına dönəsi sevinc yaşadacaq. Qələbə ovqatı göyərdilmiş səmənilər saralmamış təbiətin səmənisinin yaşıllığına bələnəcək...

Payızda yaz duyğuları nə qədər ecazkar, nə qədər incə, nə qədər istəkli olurmuş!..

Bu sərin payız günündə könlümə dağlar düşüb. Bu dəfə tamam başqa ovqatla, tamam başqa ovqata görə. Əsən mehə qoşulub budaqlardan göy üzünə boylanan sarıca yarpaqlarda yaşıllıq çalarları görürəm. Şah misraları Lələtəpə, Bayraqtəpə olan şeirə can atır könlüm:

*Payızdı, yel əsir,*
*yel əsə-əsə,*
*Könlüm köklənibdi*
*yaz havasına...*

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Hərbi yeniliklər, ənənələr



## Zirehli “Varta” maşını

Müasir zirehli "Varta" avtomobili Ukraynanın hərbi sənaye müəssisəsi tərəfindən hazırlanıb. Verilən məlumata görə, yeni zirehli avtomobilin bir neçə üstünlükləri vardır. "Varta" maşınında 270 at gücündə mühərrik quraşdırılıb, möhkəm zirehlənməyə malikdir. Bu da onun güclü partlayışa davam gətirməsinə və heyəti zirehdəşən mərmilərdən mühafizə olunmağa imkan verir. Avtomobildə gücləndirilmiş amortizator və yay (ressor) quraşdırılıb. Şose yolda onun maksimal sürəti saatda 120 kilometr təşkil edir. "Varta" zirehli avtomobilində pulemyot qurğusu və digər döyüş qurğularını quraşdırmaq olar.

## Nəqliyyat-döyüş helikopteri



Mi-24BM (Mi-35M, AH-2Sabre) nəqliyyat-döyüş helikopteri Rusiya Federasiyasında hazırlanır və seriyalarla "Rusiya helikopterləri" holdinqinin "Rosvertol" zavodunda istehsal olunur. Bu helikopter zirehli texnika və silahlanmanı məhv etmək, desantların daşınması, quru qoşun bölmələrinə atəş dayağı durmaq, yaralıları daşımaq üçün nəzərdə tutulub. Bundan başqa onun kabinəsində və asılqanında yükləri daşımaq üçün xüsusi yerlər də ayrılıb.

Helikopter Mi24B-BP maşınının modernləşdirilməsi nəticəsində hazırlanıb. Maşının uçuş-texniki istismar xüsusiyyətlərinin yaxşılaşdırılması, tapşırıqların daha keyfiyyətli yerinə yetirilməsi, bütün iqlim, yüksək dağlıq şəraitində və isti iqlimi olan ərazilərdə fəaliyyət göstərməsi üçün üzərində yeni dəyişikliklər edilib. Modernləşdirmədən sonra yeni təyinat alaraq Mi-35M helikopteri kimi ixrac edilir. Onun ilk nümunəsi 1995-ci ildə hazırlanıb. Texniki xüsusiyyətlərinə gəldikdə isə heyəti iki nəfərdən ibarətdir. Səkkiz nəfər sərnişin də yerləşdirilə bilər. Maşın 1500-dən 2400 kiloqrama qədər yük daşıya bilər. Helikopterin uzunluğu 17,49 metr, hündürlüyü isə 4,16 metrdir. Boş halda çəkisi 8360 kiloqram, maksimal uçuş çəkisi 11500 kiloqramdır. Gücü 2x2700 at gücündədir. Sürəti saatda 300 kilometr, kreyser sürəti isə saatda 240-260 kilometrə qədərdir. Silahlanmasına 23 çaplı (450 mərmili) QŞ-23L kalibrli iki lüləli topla hərəkər edən və çıxarılmayan HPPU-23 top qurğusu, dörd asılqan daxildir, döyüş çəkisi 1500 kiloqramdır. Tankəleyhinə "Şturm-B" və ya "Ataka-M (8 ədəd), idarə olunmayan raketlər, asılqanlı toplar silahlanmasına daxil edilə bilər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan kubokunda səkkizdəbir final mərhələsinin oyunlarının vaxtı açıqlanıb




Futbol üzrə Azərbaycan kubokunun səkkizdəbir final mərhələsinin oyun cədvəli müəyyənləşib.

Mərhələnin görüşləri iki gün ərzində keçiriləcək.

Dekabrın 2-də MOİK - "Sumqayıt", "İnter" - "Qaradağ Lökbatan", AZAL - "Rəvan", "Neftçi" - "Şərurspor", dekabrın 3-də isə "Turan Tovuz" - "Zirə", "Şahdağ" - "Kəpəz", "Qəbələ" - "Zaqatala", "Qarabağ" - "Səbail" görüşləri təşkil olunacaq.

## Azərbaycan çempionu Almaniyanın “Hamburq” komandasına böyük hesabla qalib gəlib



Xorvatiyada futzal üzrə UEFA Kubokunun elit raundunun "B" qrupunda son turun oyunları keçirilib. Azərbaycan çempionu "Araz" da son görüşünə çıxıb.

Naxçıvan klubu Almaniyanın "Hamburq" komandası ilə qarşılaşıb. Təmsilçimiz son oyununda 5:1 hesablı qələbə qazanıb.

"Araz" qrupdakı ilk iki oyununda Xorvatiya "Nasional"ına 1:2, Rusiya "Yuqra"sına 0:4 hesabı ilə uduzub. Komandamız "Dördlər finalı"na vəsiqə qazana bilməyib.

## Yeniyetmə və gənclər arasında karate üzrə 17-ci Respublika çempionatı başa çatıb



Noyabrın 26-da "Sərhədçi" İdman Olimpiya Mərkəzində yeniyetmə və gənclər arasında 17-ci Respublika birinciliyi keçirilib.

Yarış Gənclər və İdman Nazirliyi, Karate-do Federasiyası Assosiasiyası (AKFA) və Milli Karate Federasiyasının (MKF) təşkilatçılığı ilə baş tutub.

Yeniyetmə və gənc karateçilər (oğlan və qız) müxtəlif yaş kateqoriyalarında şəxsi kata, eləcə də fərdi kumite yarışlarında güclərini sınayıblar.

Fərdi katada əsasən "Çempion", "Qara-Qaplan", "Qarabağ" və "Arpaçay" klublarının yetirmələri fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Fərdi kumite yarışlarında isə DİN İK, "Gəncə", "Sumqayıt", "Arpaçay", MKM, "Qara-Qaplan", "Xaçmaz" və "Xırdalan" klublarının idmançıları Respublika birincisi olublar.

## Sambo üzrə Bakı çempionatına yekun vurulub



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Mərkəzində sambo üzrə Bakı çempionatı keçirilib.

Çempionatda 9 çəki dərəcəsi üzrə 110 idmançı birincilik uğrunda mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Vaqif Mirzəli (52 kq), Fuad Məmmədov (57 kq), Tural Allahverdiyev (62 kq), Tural Əhmədov (68 kq), Söhrab Bağırov (74 kq), Vahid Dəmirli (82 kq), Xaliq Niftəliyev (90 kq), Zaur Xutinayev (100 kq) və Etibar Teymurov (100 kq-dan yuxarı) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

İlk üç yeri tutan idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif olunublar.

**AZƏRTAC-ın materialları əsasında**

Məsul katib
polkovnik-leytenant İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
Lalə HÜSEYNOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 578
Nüsxə 4650